# 39-cu SES

## Bu su-elektrik stansiyaları düşmənin 30 il qaranlıqda saxladığı əraziləri işıqlığa çıxarıb



Qarabağın və Şərqi Zəngəzurun bolsulu çayları sayəsində ölkəmizin su ehtiyatlarının əhəmiyyətli bir hissəsi də məhz burada cəmləşib. Bu regionların zəngin su ehtiyatları var. Qarabağ iqtisadi rayonu 831,7 milyon kubmetr, Şərqi Zəngəzur iqtisadi rayonu isə 1622,6 milyon kubmetr çay suları ehtiyatına malikdir. Bu, ümumilikdə 2350 milyon kubmetrdir (2,35 milyard kubmter) və ölkənin daxili su ehtiyatlarının 24 faizini əhatə edir.

Bol suyun olması əhalinin və iqtisadiyyatın bu həyativacib nemətlə yaxşı təchiz olunması deməkdir. Bu, həmçinin su-elektrik stansiyalarının (SES) tikintisinə geniş imkan yaradır. Yəni su həm də işıqdır. İşğaldan azad olunmuş ərazilərimizdə indiyədək tikilib istifadəyə verilən bu tipli stansiyalalar 30 il düşmənin zülmətə qərq etdiyi yurd yerlərimizi nura boyayıb.

Bu stansiyalar Prezident İlham Əliyevin "yaşıl enerji" zonası elan etdiyi Qarabağ və Şərqi Zəngəzurda qarşıya qoyulan hədəfə çatmaq istiqamətində görülən işlərin mühüm bir hissəsidir.

Dövlətimizin başçısı bu günlərdə Ağdərə rayonuna səfəri çərçivəsində Qozlukörpü kəndində eyniadlı su-elektrik stansiyasının açılışında iştirak edib. "Qozlukörpü" işğaldan azad edilmiş ərazilərimizdə istifadəyə verilən sayca 39-cu su-elektrik stansiyasıdır.

Bu ərazilərdə istismar olunan 307 MVt gücündə 38 su-elektrik stansiyasında ötən il 750 milyon kilovat-saat "yaşıl enerji" istehsal edilib. Bununla da 160 milyon kubmetr təbii qaza qənaət olunub, 280 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Qaldı ki, regionun ən iri su arteriyası olan Tərtərçay üzərində inşa edilmiş "Qozlukörpü" Su-Elektrik Stansiyasına, onun gücü 14,7 meqavatdır.

Adətən, sərt relyef, çətin iqlim şəraiti və mürəkkəb logistika tikinti prosesi üçün digər bölgələrlə müqayisədə daha çox vaxt tələb edir. Lakin bunlara baxmayaraq, sözügedən layihə qısa müddətdə uğurla icra olunub. Dəniz səviyyəsindən 955 metr yüksəklikdə müasir baş suqəbuledici qurğu yaradılıb. Bütün texniki və ekoloji amillər nəzərə alınmaqla inşa edilən bu qurğudan stansiyaya suyun ötürülməsi üçün çətin dağlıq ərazidə 13 kilometr uzunluğunda derivasiya borusu çəkilib. Burada ölkədə ilk dəfə olaraq müasir enerji istehsalında istifadə edilən qurğular quraşdırılıb. Onlar azsulu dövrlərdə 25 faiz, bolsulu dövrlərdə isə 100 faiz məhsuldarlıqla fasiləsiz işləyə bilir.

Bununla yanaşı, müəyyən edilib ki, Tərtərçayın hidroenerji potensialı 30 SES-dir. Hazırda 22 SES "AzərEnerji" ASC tərəfindən istismardadır, beşinin tikintisi aparılır, üçünün isə inşası nəzərdə tutulur. Qeyd edək ki, Tərtərçay tamamilə ölkə daxilində formalaşır.

Yeni stansiyanın ölkə enerjisisteminə qoşulması üçün açıq paylayıcı qurğu yaradılıb, həmçinin optik kabel xətti çəkilərək stansiya rəqəmsal idarəetmə sisteminə inteqrasiya olunub. Burada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

Bu layihə çərçivəsində həm də ətraf mühit amili diqqət mərkəzində olub. Məsələn, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısını alınmaq üçün xüsusi hidrotexniki qurğular tikilib. Bu, zərərli maddələrin suya qarışmasının da qarşısını alır və onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən aşağı axarda yenidən çaya qaytarır. Müvafiq texnoloji avadanlıqlardan istifadə çay ekosisteminin dayanıqlığını təmin etməklə yanaşı, su ehtiyatının formalaşmasına da töhfə verəcək.

Xatırladaq ki, bundan əvvəl - keçən ilin avqust ayında Kəlbəcərdə üç yeni kiçik su-elektrik stansiyası (KSES) istifadəyə verilib. Dövlətimizin başçısı rayonun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su-elektrik stansiyalarının açılışını edib. Bununla da təkcə Kəlbəcərdə "yaşıl enerji" obyektlərinin sayı 11-ə çatıb.

Yaxın gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda daha böyük "yaşıl enerji" obyektləri istifadəyə veriləcək. Məsələn, indi Cəbrayıl rayonunda BP şirkətinin tikdiyi 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasında işlər qrafik üzrə irəliləməkdədir. Deməli, bu yerlərin işığı daha bol olacaq və ondan bütün ölkəyə də pay düşəcək.

Bu il yanvarın 5-də dövlətimizin başçısının yerli televizya kanallarına verdiyi müsahibədə dediyi kimi: "Biz bu bölgələri canlandırmaq üçün gərək bağlantılar, enerji təminatı yaradaydıq. Bu işlə məşğul olduq və azad edilmiş bütün bölgələri mərkəzlə, mərkəzi infrastrukturla faktiki olaraq birləşdirdik. Enerji sistemi - dairəvi enerji sistemi quruldu və bu gün mərkəzdən oraya yox, oradan mərkəzə enerji daxil olur. Çünki biz beş il ərzində 307 meqavat gücündə su-elektrik stansiyaları yaratmışıq və əlbəttə ki, azad edilmiş bölgələrdə istehlak qat-qat aşağıdır. Ona görə biz bu dairəvi sistemi yaratmaqla bu gün enerji axınını ölkə üzrə lazımi səviyyədə bölə bilərik".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2026.- 15 yanvar (№ 8).- S.4.